HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 sentyabr 2017-ci il
№018 (56)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## ƏRDOĞAN BMT-DƏ GÜRCÜSTANIN VƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASININ VACİBLİYİNİ VURĞULAYIB



Cənubi Qafqazda Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünün bərpası regionda sülhün əldə olunmasının açarıdır. Bu barədə Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda BMT Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışı zamanı bəyan edib.

Türkiyə prezidenti münaqişələrdə sülhə nail olunmasının gərəkliliyini vurğulayaraq, Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyada münaqişələrin tənzimlənməsi üçün beynəlxalq birliyin böyük səy göstərməli olduğunu bildirib.

Rəcəb Tayyib Ərdoğan deyib: “Biz unutmamalıyıq ki, bu gün bizim etinasızlıq göstərdiyimiz hər bir münaqişə sabah regional və daha böyük münaqişəyə çevrilə bilər”.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ BMT BAŞ ASSAMBLEYASININ 72-Cİ SESSİYASINDA ÇIXIŞ EDİB



Gürcüstanın baş naziri Georgi Kvirikaşvili özünün BMT Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışında bildirib: “Strategiyamızın mərkəzində Gürcüstan vətəndaşı durur”.

O, Gürcüstanın BMT-yə qoşulmasından keçən 25 il ərzində BMT-nin humanitar yardımlarını alan ölkədən aparıcı islahatçı ölkəyə çevrildiyini vurğulayıb.

Baş nazir deyib: “Strategiyamızın mərkəzində Gürcüstan vətəndaşı durur və biz bununla demokratik təsisatlarımızı daha da möhkəmləndirməyə, sülhü təmin etməyə, sürətli iqtisadi artıma cəhd edirik. Davamlı inkişafın bu vacib ünsürləri bizi regionda və bütün dünyada tərəfdaşlarımızla bağlayır”.

Kvirikaşvili Gürcüstanın yaxınlarda Açıq Hökumət Tərəfdaşlığının sədri seçildiyini qeyd edib.

O, Gürcüstanın sədrliyi dövründə Açıq Hökumət Tərəfdaşlığının BMT-nin sabit inkişaf məqsədinə çatmasına yardım edəcəyini də bildirib.

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ NÜMAYƏNDƏLƏRİ BTQ-DƏKİ İŞLƏRİN GEDİŞİNİ YOXLAYIBLAR



Azərbaycan, Gürcüstan və Türkiyənin müvafiq qurumlarının rəhbərləri sentyabrın 26-da qatarla Tbilisidən Axalkalakiyə yola düşərək, Bakı-Tbilisi-Qars dəmir yolunda tikinti işlərinin gedişi və yeni dəmir yolunun açılışına hazırlıq işlərilə maraqlanıblar.

“Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov, Türkiyənin nəqliyyat, gəmiçilik və kommunikasiya naziri Əhməd Arslan, “Gürcüstan Dəmir Yolları” SC-nin sədri Mamuka Baxtadze, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Georgi Qaxariya, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev, Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirləri Dursun Həsənov, Zəki Ləvənt Gümrükçü və digər rəsmi şəxslər Tbilisidən Axalkalakiyə yola düşənlər arasında olublar.

Dövlət və hökumət rəsmiləri Zalqa, Tetriskaro və digər stansiyalara baş çəkərək, Asiya və Avropanı birləşdirən BTQ nəqliyyat dəhlizinin açılışına hazırlıq işləri ilə maraqlanıblar.

Səfər çərçivəsində Bakı-Tbilisi-Qars dəmir yolunda test sınaqlarının keçirilməsi və yeni dəmir yolunun artıq istifadəyə hazır olması barədə məlumat verilib.

## GÜRCÜSTAN PARLAMENTİ KONSTİTUSİYAYA DƏYİŞİKLİKLƏRİ TƏSDİQLƏDİ




Gürcüstan parlamenti sentyabrın 26-da 117 səs lehinə və 3 səs əleyhinə olmaqla üçüncü, yekun oxunuşda ölkə Konstitusiyasına düzəlişləri qəbul edib.

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze səsvermədən sonra deyib: “Bu gün biz tarixi qərar qəbul etdik, o, ölkənin uzunmüddətli demokratik inkişafını təmin edən dövlət sisteminin yaradılması üçün əsas olacaq”.

O, səsvermədə iştirak edən hər kəsə təşəkkür edib.

Gürcüstan parlamentində təmsil olunan üç müxalifət partiyasından ikisi prosesdə iştirak etməkdən imtina edib. Bu, “Vahid Milli Hərəkat” və “Avropa Gürcüstanı – Azadlıq Uğrunda Hərəkat” partiyalarıdır. “Gürcüstan Vətənpərvərlər Alyansı”ndan olan deputatlar düzəlişlərin əleyhinə səs veriblər.

## GÜRCÜSTANDA EHERJİ LAYİHƏLƏRİNİN QORUNMASI ÜZRƏ HƏRBİ TƏLİMLƏR KEÇİRİLİR

Sentyabrın 25-də Tbilisidəki Krtsanisi təlim mərkəzində Azərbaycan, Gürcüstan və Türkiyə Silahlı Qüvvələrinin iştirakı ilə hərbi təlimlərin keçirilməsinə start verilib.

Report-un Gürcüstan bürosunun məlumatına görə, Eternite adlı təlimlərin məqsədi enerji və irimiqyaslı infrastruktur layihələrinin təhlükəsizliyinin təmin edilməsidir.

Bir həftəlik təlimlər zamanı üç ölkənin hərbi qulluqçuları layihələrin təhlükəsizliyinə və qorunmasına dair tədbirlər haqqında fikir mübadiləsi aparacaq və bu sahədə qabaqcıl təcrübəni öyrənəcəklər.

Tədbirin açılışında Azərbaycan, Gürcüstan və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri iştirak ediblər.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA NƏQLİYYAT DAŞIMALARININ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLİB

Tbilisidə Azərbaycan və Gürcüstan arasında beynəlxalq avtomobil daşımaları üzrə qarışıq komissiyanın iclası keçirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatına görə, ikigünlük iclasda Azərbaycanı nazir müavini Həbib Həsənov, Gürcüstanı isə Gürcüstanın İqtisadiyyat və Sabit İnkişaf Nazirliyinin Yerüstü Nəqliyyat Agentliyinin direktoru Mixail Xmaladze təmsil edib.

Məlumatda bildirilir: “İclasın gedişində Azərbaycan və Gürcüstan arasında avtomobil daşımaları ilə bağlı cari vəziyyət, statistik məlumatların mübadiləsi məsələsi, sərnişin və yük daşımaları ilə əlaqədar daşıyıcıların problemləri və onların həlli yolları, inkişaf perspektivləri və s. müzakirə olunub”.

İclasın sonunda yekun protokolu imzalanıb.

İNSANİ GERÇƏK ALƏMDƏN AYIRAN VASİTƏ 2
YASPERSİ YARALAMAQ (SÜSƏN-SÜNBÜL ƏHVALATI) 3
YAXIN ŞƏRQDƏ YENİ MÜNAQİŞƏ OCAĞI 4
MƏHƏRRƏM AYI VƏ AŞURA BARƏDƏ DÜŞÜNCƏLƏR 5
KRİPTOVALYUTA YENİ NƏSİL ÖDƏNİŞ SİSTEMİDİR 6
MİRVARİNİ QAÇIRANLAR 7



## İNSANI GERÇƏK ALƏMDƏN AYIRAN VASİTƏ

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Müasir həyatımızı texnoloji vasitələrsiz təsəvvür etmək belə çətindir. Əgər bir neçə on il, deyək ki, 30-40 il bundan əvvəl bizi belə bir gələcəyin gözlədiyini söyləyən olsaydı, çox güman, çoxumuz buna inanmazdıq. Artıq biz bunun gerçəklik olduğunu, həyatımızın ayrılmaz bir parçası olduğunu görürürük. Və məni qınamasanız, hətta bizim mahiyyətimizi təşkil etdiyini deyərdim. Nümunə üçün deyim ki, mən özümün köhnə model Samsung telefonumdan bir an da olsun ayrı durmağı heç ağlımın ucundan belə keçirmirəm. Nədən ki, bu hay-hayı gedib, vay-vayı qalmış telefon elə bil bədənimin bir üzvüdür, məsələn, vuran əlim-qolum və ya görən gözüm, eşidən qulağım kimi bir zaddır.**

Mən bu köhnə telefondan ayrıla bilmirəmsə, gör işin harasıdır. Onda yeni nəsil telefonu, smartfonu, bilgisayarı olanların öz sevimli parçalarından ayrıla bilmələrini heç xəyal etməyin. Bu texnoloji vasitələrə sahiblənmək sənin yeni bir aləmlə rastlaşmağın anlamına gəlir. Sən bu vasitələrin yardımı ilə yeni-yeni üfüqlər aça bilirsən. Yeni nəsil bir telofona malik olmaqla sən dünyada baş verən hadisələrin burulğanına düşüb, istər-istəməz həmin hadisələrin passiv də olsa iştirakçısına çevrilirsən. İnternetə qoşulmaqla dünyada cərəyan edən istənilən hadisədən xəbərdar olursan. Və bundan sonra sən yeni bir həyata başlayırsan. Yeni dostların, maraqların meydana çıxır, həyata baxışın dəyişir və ən dəhşətlisi də odur ki, sənin gerçəkliklə bağlı təsəvvürlərin baş-ayaq düşür.

İstəməzdim bundan sonra yazacaqlarım məni texnologiya düşməni, yenilik düşməni kimi tanıtsın. O üzdən də, əfəndimə söyləyim ki, əslə, mən texnoloji yeniliklərə, internetə, mövcud sosial şəbəkələrə qarşı mənfi münasibət bəsləmirəm. Artıq istəsək də dana bilmərik ki, internet bilik, məlumat mənbəyidir. Sosial şəbəklər müəyyən məsələlərin ictimailəşməsində, müəyyən problemlərin müzakirəsində və həllində əvəzsiz məkandır, insanları yaxınlaşdıran, dünyanın sərhədlərini aşan müstəsna bir vasitədir. Bütün bunları içi mən qarışıq heç kim inkar edə bilməz. Sosial şəbəkələrin və onlardan istifadə edənlərin sayı ildən ilə həndəsi silsilə ilə artmaqdadır. Misal üçün, dünyanın ən böyük sosial şəbəkəsi olan "Facebook"da (bundan sonra feysbuk və ya feys yazmağı düşünürəm) 2 milyard 10 milyon istifadəçinin qeydiyyatdan keçdiyi bildirilir. Onu da xatırladaq ki, feysbuk cəmi 13 il əvvəl yaradılıb. Bu təkcə feysə aid olan göstəricidir. Bunun "Twitter"ini, "Odnoklassniki"ni, "İnstagram"ını və digərlərini bir kənara qoyuram.

Yenə də əvvəlki fikrimin üstünə qayıdıram. Mən təhkiyəni yenə də ikinci şəxsin təkində davam etdirməyi ən yaxşı vasitə hesab edərək, "sən" deyiminə üstünlük verirəm.

Sənin virtual aləmə bağlılığın asılılıq səviyyəsinədək yüksəlir. Əvvəl-əvvəl saatlarını, sonra isə günlərini bu aləmlə bağlayırsan. Ac qalırsan, susuz qalırsan, amma bu aləmdən qopa bilmirsən. Sən gerçəklidə baş verənləri virtual aləmdə baş verənlərlə qarışdırırsan. Sən həqiqi, canlı dostlarından uzaqlaşıb, tanımadığın, üzünü belə görmədiyin yalançı, saxta dostların sənin fikrinə (oxu: statusuna, tvitinə) verdiyi rəyin sayının azlığı ilə, çoxluğu ilə nəfəs almağa başlayırsan. Onların yazdığı rəyləri həyatıyın mənası hesab edirsən. Bir düşün, təkcə feysbukda hər gün 55 milyon status yazılır. Bu da elə 55 milyonun fikri deməkdir. Düşün ki, onlardan biri də sənsən və sənin yazdıqların 55 milyondan biridir. Sənin şəbəkədaşların yüzlərlə dostunun paylaşdıqlarına reaksiya verməlidir, çatdırıb hamısına rəy yazmalı, ən azından isə bəyənməlidir (feysdə dostlarının sayı ilə öyünənlər də yox deyil). Belə çıxır ki, o, bütün gününü internetdə keçirməli, daha doğrusu çürütməlidir. Sözarası onu da deyim ki, mövcud olduğu müddətdə feysbukun "like", yəni "bəyən" düyməsinə 1,13 trilyon dəfə basılıb.

Sosial şəbəkələrdəki dostlar sənin paylaşdıqlarına reaksiya vermədikdə hirslənirsən. Onları dostluğundan çıxaracağınla bağlı xəbərdarlıq mesajları yazırsan. Nədən ki, onlar sənin paylaşdıqlarına münasibət bildirməyiblər. Deyək ki, sən getdiyin toydan şəkillər paylaşıbsan və ya hansısa bir müdrikdən kəlam guppuldadıbsan (bu kəlamın müəllifi kimi özünü göstərənlər də az deyil) və bunlar şəbəkə dostlarıyın ilgisini çəkməyib, az bəyəniblər, az rəy yazıblar və ya heç yazmayıblar. Bax, budu səni cırnadıb, özündən çıxaran. Sözarası onu da deyim ki, saxta profillər açıb öz paylaşdıqlarını bəyənənlər, saxta rəy yazanlar da kifayət qədərdir. Bir düşün, deyək ki, sənə qarşı münasibətdə səmimilik göstərməyən adamları dostluğundan çıxardın, nə dəyişəcək? Heç nə. Sənin özünü didib-tökməyin özünə qalacaq.

**Müasir həyatı internetsiz təsəvvür etmək mümkün deyil. Artıq bunu söyləmişəm. Amma internetə aludəçilik, sosial şəbəkələrə bağlılıq, virtual oyunlara vurğunluq sonradan düzəldilməsi mümkün olmayan facilərə yol aça bilər. Müalicəsi çətin olan psixoloji xəstəliklər, ailə münaqişələri, müxtəlif qarşıdurmalar, hətta ölüb-öldürmələr belə facilərin yalnız natamam siyahısıdır. Bunu mən demirəm, bu sahəyə bələd olan mütəxəssislər söyləyirlər. Düzdür virtual aləmə maraq insanın yeniliklərə həvəsindən irəli gələ bilər. Hərdən adam bir başını qaldırıb gerçək dünyaya baxmağı da, həvəsdi, bəsdi deyib, qulağındakı qulaqcıqları çıxarıb, gerçək aləmə dönməyi də bacarmalıdır.**

## LİTVA ÖLKƏMİZİ "SAKARTVELO" ADLANDIRACAQ



Litva parlamentinin spikeri Viktoras Prantsketis 2018-ci ildə Gürcüstana və gürcü xalqına hədiyyə etməyi təklif edib. O, litovların Gürcüstanı "Gürcüstan yox, Sakartvelo" (Əslində söhbət Gürcüstan sözündən yox, Qruziya və ya Georgia sözündən gedir – red. qeydi) adlandırmağa səsləyib.

Viktoras Prantsketis gürcülərin "Gürcüstan" sözünü (Qruziya və ya Georgia sözünü – red. qeydi) sevmədiklərini, onların daha çox "Sakartvelo" adından xoşlandıqlarını vurğulayıb.

Litva parlamentinin sədri bu barədə ona Tbilisidə sadə vətəndaşların, Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin, Vilnüsdə isə Gürcüstanın Litvadakı səfiri Xatuna Salukvadzenin dediklərini xatırladıb.

Viktoras Prantsketisin ideyasına artıq Litva Seyminin bir neçə deputatı tərəfdar çıxıb.

## MİLLİ AZLIQLARIN GƏNC NÜMAYƏNDƏLƏRİ DÖVLƏT QURUMLARINDA TƏCRÜBƏ KEÇİBLƏR

Gürcüstanda milli azlıqların gənc nümayəndələri üçün nəzərdə tutulmuş dövlət qurumlarında təcrübə üzrə proqramın birinci mərhələsinin başa çatması münasibətilə tədbir keçirilib.

Barışıq və vətəndaş bərabərliyi üzrə dövlət naziri Ketevan Suxelaşvili proqramın birinci mərhələsinin nəticələrini müsbət qiymətləndirib.

Onun sözlərinə görə, proqramda 65 azərbaycanlı və erməni gənc iştirak edib.

Nazir deyib: "Proqram gələcək illərdə də gerçəkləşdiriləcək. Bu təcrübə gənclərin gələcək karyerasında böyük rol oynayır".

Tədbirdə dövlət qurumlarında təcrübə keçmiş gənclər çıxış edərək, öz təəssüratlarını bölüşüblər. Sonda təcrübə keçmiş gənclərə müvafiq sertifikat verilib.

## FEREYDAN GÜRCÜLƏRİNƏ GÜRCÜSTAN VƏTƏNDAŞLIĞI VERİLMƏDİ

Fereydan gürcülərinə Gürcüstan vətəndaşlığı verilməyib. Sadələşdirilmiş qaydada gürcü pasportu almaq üçün tarixi vətənlərinə gələn iyirimiyə qədər İran vətəndaşı bir neçə ay nəticəsiz gözləyib.

Fereydan gürcüləri nə üçün onları vətəndaşlığa qəbul etmədiklərini bilmirlər. Onlar xüsusi müsahibədən keçdiklərini, lakin nə üçün vətəndaşlıq ala bilmədiklərini söyləyiblər.

Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin rəhbəri Soso Qiorqadze bildirib ki, komissiya təxminən 20 İran vətəndaşına istisna qaydada vətəndaşlıq verilməsini məqsədəuyğun saymayıb.

Fereydan gürcüləri prezident Georgi Marqvelaşvilidən kömək etməsini xahiş ediblər.

Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin məlumatına görə, 2017-ci ildə 79 Fereydan gürcüsü Gürcüstan vətəndaşlığı alıb.

## MƏKTƏBLƏRDƏ İBTİDAİ HƏRBİ HAZIRLIQ DƏRSLƏRİ BƏRPA OLUNACAQ



Müdafiə Nazirliyinin təşəbbüsü ilə Gürcüstan məktəblərində yeni "Müdafiə və təhlükəsizlik" adlı fənn tədris olunacaq.

Müdafiə Nazirliyinin nümayəndəsi Mariam Çikobava nazirliyin müvafiq dərs vəsaiti üzərində fəal şəkildə işlədiyini bildirib.

Çikobava şagirdlərin müdafiə və təhlükəsizlik sistemlərilə, dövlət qarşısında duran çağrışlarla tanış olacaqlarını qeyd edib.

Müdafiə Nazirliyinin nümayəndəsinin sözlərinə görə, məktəblilər fövqaladə vəziyyətlər zamanı özlərini necə aparmağı öyrənəcəklər. Onlara təkcə nəzəri məşğələlər deyil, həm də hərbi bazalarda təcrübi məşğələlər keçiriləcək.

Bu fənni tədris edəcək məktəb müəllimləri yenidən hazırlıq keçəcəklər.

Mariam Çikobava deyib: "Mövzular seçilib, məndəricat müəyyənləşdirilib, artıq dərsliyin ilkin versiyası var".

Bu fənnin 2018-ci ildən tədris olunacağı gözlənilir.

## MƏCBURİ TEXNİKİ BAXIŞ 2018-Cİ İLİN YANVARINDAN TƏTBİQ OLUNACAQ

İqtisadiyyat və sabit inkişaf naziri Georgi Qaxariya Gürcüstanda bütün avtomobillərin məcburi texniki baxışdan keçirilməsinə 2018-ci ilin yanvarından, sonuncu hazırlıq mərhələsi başa çatdıqdan sonra start veriləcəyini bildirib.

Qaxariya deyib: "Bu layihə üzərində ən yaxşı şirkətlərdən biri olan SGS işləyir. Üç mərhələdən ikisi başa çatıb, üçüncüsü bu ayın sonunda başa çatmalıdır".

Nazir məcburi texniki baxışın həyata keçirilməsinin bütün avtomobillərin eyni vaxtda texniki baxışdan keçməsi anlamına gəlmədiyini qeyd edib. Bu məsələnin həllinə dair planın bir ay ərzində hazırlanacağı bildirilib.

"Yol hərəkəti haqqında" qanuna edilən düzəlişlərə əsasən, vaxtaşırı məcburi texniki baxış yalnız Gürcüstan ərazisində istismarda olan və Gürcüstan qanunvericiliyi ilə müəyyən olunmuş qaydalarla qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinə şamil ediləcək.

## 2017-Cİ İLİN YEDDİ AYI ƏRZİNDƏ GÜRCÜSTAN İQTİSADİYYATINDA 4,4% ARTIM OLUB

Gürcüstan Statistika Xidməti iqtisadi artıma dair məlumatları dərc edib. Məlumatda 2017-ci ilin ilk yeddi ayı ərzində Gürcüstan iqtisadiyyatının real artım tempinin 4,4% olduğu vurğulanır. Bu göstərici hökumətin müəyyən etdiyi 4%-lik artım proqnozundan 0,4% artıqdır.

Cari ildə ən yüksək iqtisadi artım mart və may aylarında, ən aşağı göstərici isə aprel ayında qeydə alınıb.

İqtisadi artım göstəricisinə həcmi 28% artan ixrac, habelə şirkətlərin artan dövriyyəsi müsbət təsir göstərib. İyulda biznes dövriyyəsi 5,5 milyard lari təşkil edib, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,8% çoxdur.

Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı Gürcüstanın iqtisadi artım proqnozlarını azaldıb. May ayına qədər Ümumdünya Bankı ölkədə 5,2%-lik artım proqnozlaşdırsa da, mayın 11-də Gürcüstanın iqtisadi artım proqnozunu 3,5%-dək azaldıb. Beynəlxalq Valyuta Fondu da 3,5%-lik artım proqnozlaşdırıb.

2016-cı ildə Gürcüstanın iqtisadi artımı hökumətin nəzərdə tutduğu 2,7%-ə nisbətən 2,8% olmuşdu.

2010-cu ildən Gürcüstanın iqtisadi artımı orta hesabla 6,1% olub. Lakin 2013-cü ildə o, planlaşdırılan 6% əvəzinə 3,3% olmuşdu.

2014-cü ildə hökumət 5%-lik iqtisadi artım planlaşdırsa da, artım cəmi 4,6% təşkil etmişdi. 2015-ci ildə də nəzərdə tutulan 3,6% əvəzinə 2,8%-lik iqtisadi artıma nail olunmuşd

## GÜRCÜSTANDA UŞAQ OUNCAQLARI BAZARINA NƏZARƏT GÜCLƏNDİRİLƏCƏK



Hal-hazırda Gürcüstanda uşaq oyuncaqlarının təhlükəsizliyinə heç kim nəzarət etmir. Keyfiyyətsiz oyuncaqlar isə sağlamlıqla əlaqədar müxtəlif problemlər, o cümlədən də zəhərlənmə, allergiya və s. yarada bilər. Problemin uşaqlara aid olmasına baxmayaraq, ona heç kim diqqət yetirmir.

Avropa Birliyi və Gürcüstan arasında Assosiasiyaya dair saziş oyuncaqların keyfiyyətinə nəzarət sisteminin 2019-cu ildən tətbiq olunmasını nəzərdə tutur. Gürcüstan hökuməti isə bunu 2018-ci ildən həyata keçirməyi planlaşdırır.

Xüsusi sektor hakimiyyətin bu niyyətini alqışlayır və bunu vaxtında atılmış addım hesab edir.

“Pepela” mağazalar şəbəkəsinin baş meneceri Sofo Pxakadzenin sözlərinə görə, artıq bu məsələyə dair İqtisadiyyat Nazirliyi və biznes nümayəndələri arasında məsləhətləşmələr keçirilib. Nazirlik bu istiqamətdə fəaliyyətini xüsusi sektorla əlaqələndirmək niyyətindədir.

Sofo Pxakadze deyib: “Bizim keyfiyyətlə bağlı problemimiz yoxdur, bizim oyuncaqlar əsasən Avropadan gətirilir, orada isə keyfiyyətə nəzarət olduqca sərtdir, ona görə də yoxlanılmış məhsullar gərəkli sertifikata malik olur. Lakin bütövlükdə sərhəddə nəzarət yoxdur və hər şey konkret idxalçıdan asılıdır”.

O, əlavə edib ki, keyfiyyətsiz oyuncaqları birbaşa sərhəddə saxlamaq və onları ölkəyə buraxmamaq lazımdır. “Pepela” mağazalar şəbəkəsinin baş meneceri bəyan edib ki: “Bütövlükdə bu istiqamətdə vəziyyət kifayət qədər mürəkkəbdir. Oyuncaq idxalı ilə çox adam məşğul olur və onların əksəriyyəti Avropa bazarı üçün yararsız hesab edilən məhsullar gətirirlər. Bu cür oyuncaqları nəzarət olmayan ölkələrə gətirirlər və Gürcüstan onlardan biridir”.

Sofo Pxakadzenin sözlərinə görə, ölkədə oyuncaqlar üzərində nəzarət yaranan kimi, bazar təmizlənəcək və satışa yalnız keyfiyyətli məhsullar daxil olacaq.

O, deyib: “Hazırda mağazalarda vəziyyət az və ya çox dərəcədə normaldır, lakin ucuz və keyfiyyətsiz məhsullar satılan bazarlarda və yarmarkalarda vəziyyət olduqca pisdir. Tənzimləməni tədricən tətbiq etmək gərəkdir ki, oyuncaq idxalı ilə məşğul olan sahibkarlar başqa işlərlə məşğul olmağa imkan tapsınlar”.

Bununla belə, Sofo Pxakadze qeyd edib ki, ucuzluq heç də həmişə keyfiyyətsizlik anlamına gəlmir, bəzən aşağı qiymət və yüksək keyfiyyət tamamilə bir arada ola bilər. Nümunə üçün, bu, belorus istehsalçılarının məhsullarına aiddir.

Oyuncaq idxalı üzrə “Çita” şirkətinin direktoru Nino Unqiadze oyuncaqların keyfiyyəti üzərində sərt nəzarətin yaradılmasının neqativ ictimai fikrə son qoyacağına inanır. Belə ki, bu ictimai rəyə görə, Gürcüstanda satılan bütün oyuncaqlar istinasız keyfiyyətsizlərdən ibarətdir.

Nino Unqiadze vurğulayıb: “Biz bu qərarı dəstəkləyirik, heç olmasa tənzimləmənin tətbiqindən sonra anlaşılmazlıqlardan qaçmaq olacaq, bəzən keyfiyyətli oyuncaqlar satılan mağazalara da yaramayan oyuncaqlar düşür. Bu, nəzarətin olmadığı bir şəraitdə qaçılmazdır və hər bir konkret ticarət nöqtəsinin menecmentinə hər şeyi izləmək çox çətindir. Bununla dövlət məşğul olmalıdır”.

Oyuncaqların təhlükəsizliyi məsələsi kənardan baxıldığı kimi, zərərsiz deyil. Pediatr Maya Abulaşvilinin sözlərinə görə, keyfiyyətsiz oyuncaqlar uşaqlarda müxtəlif növ allergiyalar, bronxial problemlər, konyuktivit və digər çox ciddi xəstəliklərin yaranmasına səbəb olur.

Maya Abulaşvili deyib: “Bu, xüsusilə yumşaq oyuncaqlara aiddir. Belə vəziyyətdə ucuzluq dalınca qaçmaqdansa, uşağa beş dənə ucuz oyuncaq əvəzinə bir dənə bahalı oyuncaq almaq daha yaxşıdır. Bununla siz alınan oyuncağın uşağın sağlamlığına təhlükə yaratmayacağına tam əmin ola bilərsiniz”.

Hazırladı: Afayət AFİQ

## YASPERSI YARALAMAQ
### (SÜSƏN-SÜNBÜL ƏHVALATI)

İBRAHİMXƏLİL



**Orda ayla, illə, burda müxtəsər dillə...**

...qədim Afinada hətta kasıb ailənin də qulu var imiş. Üstəlik də evin alaqapısında zəncirlənmiş it əvəzinə divara zəncirlənmiş qapıçı-qul oturumuş. Və bu qullar arsında arada-sırada qul-filosoflar da olurmuş: misilləmə misal üçün, qədim Romada qul olan qədim yunan filosofu unudulmaz Epiktet kimi...

İndi mən unudulmaz filosof N.A.Berdyayevin fikrini oxuyanda ki, bəs deməzsənmi, fəlsəfə mədəniyyətin ən müdafiəsiz tərəfidir, nədənsə yadıma qədim dövrün qul üsyanları düşür. İlahi, aristokratlardan tutmuş strateqlərə qədər, zəncirlənmiş qullardan necə qorxurlarmış, necə əsim-əsim əsirlərmiş!.. Kim bilir, bəlkə də uzaq gələcəkdə “müdafiəsiz fəlsəfə”dən əsl azadlıq doğacağını (kreativlik daxil) hiss edirlərmiş! Axı bütün hallarda demokratiyanın vətəni qədim Afina sayılır.

Mətləbdən uzaq düşməyək.

...eşitdiyimə görə, canım-gözüm Bakıda “26” – “Twenty six” kafesi ilə bağlı “qarşıdurmalar” çoxdan səngiyib, amma Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın, daha dəqiqi, Borçalı Süsən-Sünbülündə yeni-yeni alovlanmağa başlayır; belə ki, tarix üzrə fəlsəfə doktoru Mirzə Toxmaqvuran deyir ki, Çingiz Abdullayevin qələm tutan barmağını qırmışam, filologiya üzrə fəlsəfə doktoru Mirzə Tüpdağıdan bar-bar (bəlkə də “barbar” sözündəndir) bağırır ki, Anarın qabırğasını sındırmışam, pedaqogika üzrə fəlsəfə (yazıq-yavuz və müdafiəsiz fəlsəfə!) doktoru Mirzə Mikrob isə gedib yazıçıların Natəvan klubunu yerlə-yeksan edəcəyini söyləyir.

Mən Qvineya-Bisau ədəbiyyatı üzrə mütəxəssis olduğuma görə susuram, amma Mirzə Qələm dilini dinc saxlamır və unudulmaz Sabirin “Hatifdən gələn bir nida deyir ki”dən stereofonik sitat söyləyir:

***Görəsən Məmdəlinin yapdığı əfalı nədir?***
***Bu səyahətdən onun qayeyi-amalı nədir?***

Keçmişə qayıtmaq mümkün olsaydı, unudulmaz Berdyayevin nəzər-diqqətinə çatdırardım ki, işdi-şayəd, yolu Süsən-Sünbül tərəflərə düşsə, feysbuk üzrə bəzi fəlsəfə doktorlarının “müdafiəsiz fəlsəfə”dən “hücum fəlsəfəsi” quraşdırdıqlarına da diqqət yetirsin. Əlbəttə, zəhmət olmasa...

...amma Süsən-Sünbüldə ədəbiyyatdan (varlıq) artıq ədəmiyyət (yoxluq) dəbdə olduğundan, yazıçının yeganə silahı olan qələmlə kimisə damğalamağın da qəti əleyhinəyəm. Di gəl, oxuyanda ki, canım-gözüm Bakıda hələ də bir “26 Bakı komissarı” küçəsi qalırmış, onda unudulmaz Mirzə Cəlilin düz 100 il əvvəl yazdığı “ay bitli marağalı, mərəndli qardaşım” (görünür, onda Mirzə Cəlil Süsən-Sünbülü tanımırmış) xitabı adamı xeyli hüznlü-qəmgin edir. Düzü-dünya Arakan faciəsindən, Ərbil refefendumundan, Nobel həftəsindən danışır, möhtərəm Süsən-Sünbül də... kult kafedən...

“Biz bir-birimizi yaralamaqdan, mənəvi əzab və iztirab verməkdən, bir-birimizin qəlbimizi sındırmaqdan niyə vaz keçmirik”? Bunu Mirzə Qələm soruşur.

Fikrim Qvineya-Bisauda kitab satsa da, mənə belə gəlir ki, Anardan, Çingiz Abdullayevdən, Qulu Ağsəsdən, İlqar Fəhmidən, Mirzə Qələmdən, şəhər merindən (Məqsəd Nurun qulağı cingildəsin) artıq Yaspers yaralanır. Unudulmaz Yaspers! O Yaspers ki (alm. Karl Theodor Jaspers), insanlar arasındakı əsas təzadı onların azadlığa fərqli münasibətində görürdü. Hər addımda da barbar, ya da əxlaqsız axtarmırdı; çünki həmişə ekzistensiya (Özü olmaq) vəziyyətində idi. Mahiyyət etibarı ilə hər şeyin azadlıq üçün olduğunun altını cızan filosof bunu da deyirdi ki, azadlıq yolunda bəzi ifratçılar, azadlığı əndrəbadi qananlar qula da (zəncirli, ya zəncirsiz; filhəqiqət fərq etməz) çevrilirlər. Bax, bu yerdə adam gərək özünü yığışdıra!

Burasını da deyim ki, baxmayaraq, çox kralların və kafelərin adları tozlara qarışdı, amma bütün aldıqları yaralara rəğmən Yaspers də qalır, bizə ekzistensiyaları yaşadan fəlsəfə də, ədəbiyyat da.

“Biz nədən “siks”i (6) “seks” kimi qəbul edirik, nədən çox zaman kreativliyimizi deyil, ədəbi əcinnəliyimizi, internet trolluğumuzu önə çəkirik”? Bunu da Mirzə Qələm soruşur.

Sözümün toz-tozanaq, az-az da arazbarı təkrarına qayıtmamaq üçün ehtiramla deyirəm ki, get cavabı Yaspersin “Tarixin mənası və təyinatı” əsərində axtar.

...və canım-gözüm Bakıdan bu qədər uzaqlarda yenidən Süsən-Sünbül yoluna çıxıram.

P.S.

Bilmirəm kimsə deyib ki, bəzi nadanlar kreativliyi reklam şirkətlərinin birində işləmək kimi qanırlar.

**...atana min rəhmət! “Yaralılar dərdini nə bilsin yarasızlar?” verilişinin reklamını arazbarı az eylə!..**



## YAXIN ŞƏRQDƏ YENİ MÜNAQİŞƏ OCAĞI

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Yaxın Şərqdə onsuz da gərgin olan vəziyyət daha da bulanmaqdadır. Bu fikri 25 sentyabrda Kürdüstanın müstəqilliyinə dair keçirilən referendumdan sonra söyləmək olar. Çünki, yaradılaması planlaşdırılan kürd dövləti regionun 4 ölkəsinin ərazi bütövlüyünü təhdid etməkdədir. Odur ki, İraq, İran, Türkiyə və Suriyanın baş verən hadisələrə seyrçi qalmayacağı görünməkdədir. Məsələnin qəlizliyi ondan ibarətdir ki, kürd etnosu yuxarıda adları çəkilən ölkələrin ərazilərinə səpələnmiş halda yaşayır. İraq ərazisində kürd dövlətinin yaradılması gələcəkdə Türkiyə, Suriya və İranda da bənzər referendum "parad"larına zəmin yarada bilər. Üstəlik, kürdlər İraq türkmənlərinin və ərəblərin kompakt halda yaşadıqları Kərkük vilayətini də sözdə Kürdüstanın tərkib hissəsi hesab edirlər. Mərkəzi İraq hakimiyyəti sözügedən referendumun baş tutmaması üçün dünya birliyinə səslənsə də, İraq kürd muxtariyyətinin lideri Məsud Bərzani geri addım atmadı. Türkiyə və İranın da Bərzanini fikrindən daşındırmaq çalışmaları yetərsiz qaldı. Bəs bundan sonra başda İraq və Türkiyə olmaqla bölgə ölkələri kürd məsələsinə dair hansı yol xəritəsi ilə hərəkət edəcəklər?**

Başda ABŞ olmaqla Qərb dünyası Bərzaninin Kürdüstanın müstəqillik ideyasına sözdə etiraz etməsi aysberqin görünən hissəsidir. Əslində, kürd lideri həmin dairələrdən "xeyir-dua" almasa çətin ki, belə bir addım atardı. Başqa sözlə desək, Trampın "dur" işarəsini Bərazninin qulaq ardına vurmasına inanmaq çürük məntiq olardı. Məhz, PYD və YPG-nin simasında kürdləri silahla təhciz edən Vaşinqton, onları müdafiə edən isə Avropadır.

Türkiyənin Rusiya ilə S-400 zenit-raket kompleksi anlaşmasından sonra Ankara ilə münasibətləri tarıma çəkilən Günbatan ölkələrinin bölgədə onların diqtəsi ilə hərəkət edən oyuncaq quruma ehtiyacları vardır. Vaşinqton və onun müttəfiqlərinin başlıca hədəfi Kürdüstan dövlətinin yaratmaqla həm İran, həm də Türkiyə üzərində basqı qurmaqdır. I Dünya müharibəsindən bəri kürdlərin müstəqillik tələbinin Qərbin indi "yadına düşməsi" düşündürücüdür.

Kürdüstanın müstəqilliyini ayaq üstə alqışlayan tək dövlət ABŞ-ın Yaxın Şərqdəki "prototipi" İsraildir. Kürdüstanın mövcudluğu ərəb dünyası ilə əhatə olunmuş İsrailin milli təhlükəsizlik strategiyasına daxildir. Çünki, Tel-Əviv əbədi düşmən hesab etdiyi İranı və münasibətləri heç də ürəkaçan olmayan Türkiyəni "vurmaq" üçün kürd faktorundan istifadə etmək niyyətindədir.

Bu istiqamətdə siyasət aparacaq ölkələrdən biri də hər zaman məkrli Yaxın Şərq siyasəti ilə seçilən İngiltərədir. Britaniya xarici işlər naziri Boris Consonun Kürdüstanı tərəf kimi qəbul etməsi dolayı yolla bu ölkənin müstəqilliyini tanımaq anlamına gəlir.

Türkiyənin Kürdüstan dövlətinin yaranmaması üçün sonuna qədər mübarizə aparacağı sezilir. Ankara İraq Kürd Muxtariyyəti ilə bütün iqtisadi-ticari münasibətlərinə təktərəfli surətdə xitam vermişdir. Artıq, Türkiyə Silahli Qüvvələri İraq sərhədində hərbi təlimlərə başlamışdır.

Kürd məsələsinə dair Rusiyanın tutacağı mövqe maraq doğurmaqdadır. Putinin Türkiyəyə səfərinin əsas mövzusunun kürd referendumuna həsr olunacağı şübhə yeri qoymur. Qərb dünyası tərəfindən təklənmiş Türkiyənin hal-hazırda dəstək ala biləcəyi yeganə dövlət Rusiyadır. Lakin, Ərdoğanın Putinə "etibar etməsi" müasir Türkiyə tarixində ən böyük səhv olardı. Çünki, S-400 zenit komplekslərinin Ankaraya təvhil verilməsində Moskva süni surətdə yubanmalar yaratmaqdadır. Rusiya yaxşı anlayır ki, qeyd edilən silahları Türkiyəyə satmasından sonra Qərbin yeni embarqo və izolyasiyası ilə üzləşəcəkdir. Ona görə də Moskava "gözlə, gör hələ nə olur?" prinsipi ilə hərəkət edir. İkinci bir tərəfdən, Rusiya Türkiyə ərazisinin bir hissəsi də daxil olmaqla vahid Kürdüstan dövlətinin yardaılması üçün uzun illər cəfa sərf etmiş bir ölkədir.

**Artıq, Yaxın Şərqdə yeni və daha təhlükəli atəş ocağı közərməkdədir. Bu dəfə söhbət İŞİD-lə mübarizədən yox, bir neçə dövləti cənginə alacaq və regionun siyasi xəritəsini də-**

## ƏRDOĞAN-PUTIN GÖRÜŞÜ SAAT YARIMDAN ÇOX DAVAM EDİB



Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan və onun rusiyalı həmkarı Vladimir Putin arasında Ankarada keçirilən danışıqlar 1,5 saatdan çox davam edib.

Suriyadakı vəziyyət, bu ölkədəki təhlükəsizlik zonalarında Rusiya və Türkiyə Silahlı Qüvvələrinin atacağı addımların əlaqələndirilməsi, İraq kürd muxtariyyətində müstəqillik referendumu, ikitərəfli münasibətlərin müxtəlif aspektləri danışıqların əsas mövzusunu təşkil edib. Tərəflərin "Türk axını" qaz borusu və "Akkuyu" AES-in tikintisi, hərbi-texniki sahədə əməkdaşlıq məsələlərini müzakirə etdikləri də bəlli olub.

İki ölkə prezidentinin təkbətək görüşündən sonra müzakirələr hər iki ölkənin nümayəndələrindən ibarət heyətin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Rusiya tərəfini danışıqlarda XİN rəhbəri Sergey Lavrov, prezidentin mətbuat katibi Dmitri Peskov, prezidentin köməkçisi Yuri Uşakov, energetika naziri Aleksandr Novak, Baş Qərargah rəisi Valeri Gerasimov, kənd təsərrüfatı nazirinin müavini Yevgeni Qromıko, prezidentin Suriya nizamlanması üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyev, "Qazprom"un rəhbəri Aleksey Miller, "Rosatom"un rəhbəri Aleksey Lixaçov və Rusiyanın Ankaradakı səfiri Aleksandr Yerxov təmsil edib.

Türkiyə nümayəndə heyətinin tərkibində Baş Qərargah rəisi Hülusi Akar, baş nazirin müavini Mehmet Şimşek, XİN rəhbəri Mövlud Çavuşoğlu, energetika və təbii sərvətlər naziri Berat Albayrak, iqtisadiyyat naziri Nihat Zeybekçi, Türkiyənin Moskvadakı səfiri Hüseyn Diriöz, MİT rəhbəri Hakan Fidan, müdafiə nazirinin müavini İsmayıl Dəmir, prezidentin baş müşaviri Sadık Arslan, Prezident Administrasiyası rəhbərinin müavini İbrahim Kalın yer alıblar.

## RƏSMİ BAĞDAD İRAQ KÜRDÜSTANINDAKI REFERENDUMUN NƏTİCƏLƏRİNİ QEYRİ-LEGİTİM SAYIR

Rəsmi Bağdad İraq Kürdüstan regional rəhbərliyi ilə müstəqillik referendumunun nəticələrini müzakirə etməyəcək.

Bu fikri İraqın baş naziri Heydər əl-Abadi səsləndirib: "Biz qeyri-legitim referendumun nəticələri ilə bağlı hər hansı dialoqa və ya müzakirəyə lüzum görmürük", deyə baş nazir bildirib.

Onun sözlərinə görə, səsvermə prosesi zamanı saxtakarlığa yol verilib, seçicilərə təzyiq göstərilib.

Qeyd edək ki, sentyabrın 25-də İraqın şimalındakı Kürd Muxtariyyətinin ərazisində müstəqillik referendumu keçirilib. Referendumda 3 305 925 seçici iştirak edib.

Mərkəzi İraq hökuməti Kürd Muxtariyyətinin ərazisində keçirilən referendumun qanunsuz olduğunu bəyan edib.

Xatırladaq ki, dünya ölkələri, o cümlədən də Türkiyə, İran İraqın ərazi bütövlüyünü dəstəklədiklərini, keçirilən referendumun nəticələrini tanımadıqlarını bəyan ediblər.

## YÜZDƏN ÇOX ÖLKƏ BMT TŞ-DƏ VETO HÜQUQUNUN MƏHDUDLAŞDIRILMASINA TƏRƏFDAR OLDU

Yüzdən artıq ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququnun məhdudlaşdırılması ideyasına tərəfdardır.

Bu barədə Lixtinşteynin xarici işlər naziri Aureli Frik məlumat verib.

Qeyd edək ki, Fransa 2013-cü ildə BMT TŞ-da veto hüququndan istifadə olunmasının məhdudlaşdırılmasını təklif etmişdi. Daimi üzvlərə veto hüququndan bəşəriyyətə qarşı cinayətlərə və soyqırımına aid olan qətnamələrin qəbulu zamanı istifadə etməmək təklif olunurdu.

BMT Baş Assambleyası çərçivəsində iclası açarkən Aureli Frik bu təşəbbüslə bağlı deyib: "Bu təşəbbüsə müstəsna cavab verilib. Hal-hazırda dünyanın bütün regionlarından 114 böyük və kiçik dövlət, o cümlədən də Təhlükəsizlik Şurasının hazırkı üzvlərinin əksəriyyəti onu imzalayıb".

Hazırda BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü olan Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çin qərarların qəbul edilməsi zamanı veto hüququna malikdir.

## PSİXİATRLAR TRAMPI QƏZƏBLƏNDİRƏCƏK KİTAB NƏŞR ETDİRİBLİR



ABŞ-ın Yelsk Universitetində Bend Linin rəhbərliyi altında 27 nəfərlik psixiatrlar qrupu ABŞ prezidenti Donald Trampın psixi vəziyyəti haqqında kitab yazıb.

Bu barədə Böyük Britaniyanın "The Independent" nəşri məlumat yayıb.

Kitabın müəllifləri iddia edirlər ki, Tramp "təhlükəli ruhi xəstə"dir və onun "dəliliyi" diqqəti cəlb edir. Həmçinin, kitabda Tramp "dünyada ən təhlükəli insan" adlandırılıb.

"The Independent" nəşrinin iddiasına görə, bu kitab ABŞ-ın peşəkar psixiatrlar cəmiyyətinin mənfi reaksiyasını səbəb bilər.

Kitaba sahib olmaq istəyənlərin onu oktyabrın 3-dən sifariş vermək imkanları olacaq. Kitabın qiyməti 16,79 dollardır.

# MƏHƏRRƏM AYI VƏ AŞURA BARƏDƏ DÜŞÜNCƏLƏR

***Dünya həyatı, iş-güc insanın başını elə qatır ki, zamanın necə keçdiyinin belə fərqində olmur. Yazmaq istədiyim mövzuyla bağlı bir öncəki yazını mənə elə gəlir ki, dünən yazmışam. Bəli, bu mövzu elə bir mövzudur ki, haqqında yazmasan olmur.***

Məhərrəm ayı haqqında və bu ayda baş verənlər haqqında bir daha qələmimi dilləndirmək istədim. Yuxarıda da vurğuladığım kimi, bu haqda daha öncə yenə yazmışdım. Bu dəfə də o mövzuda yazılan bir neçə cümləni təkrarlamadan keçə bilməyəcəm.

Məhərrəm ayı müsəlman təqviminin yəni hicri-qəməri təqviminin ilk ayıdır. Həzrəti Ömərin xəlifəliyi zamanında bir təqvim meydana gətirməyin ehtiyacı hiss olundu. Bu səbəblə də başlanğıc üçün hər kəs bir fikir irəli sürdü. Kimisi Quranın nazil olma zamanını, kimisi Bədr müharibəsini, kimisi də Ühüd savaşını başlanğıc olaraq təklif etdi. Düzdür bunların hər biri İslam aləmində əhəmiyyət kəsb edən hadisələr idi. Ancaq bəyənilməyən fikirlər oldu. Bunu görən həzrəti Əli əfəndimiz peyğəmbərin Məkkədən Mədinəyə hicrətini təqvim başlanğıcı olaraq götürməyi təklif etdi və qəbul edildi.

Məhərrəm ayı bir çox xüsusiyyəti özündə daşımaqdadır. İlk olaraq onu deyək ki, Məhərrəm ayı Qurani Kərimdə də ifadə edilən dörd haram aylar içərisində yer almaqdadır. Bundan başqa bu ayda tarix boyu bir çox hadisələr baş vermişdir.

Onları bu cur sıralamaq olar:

• İlk insan və ilk Peyğəmbər Hz. Adəmin tövbəsi bu ayda qəbul olunmuş;

• Hz.Nuhun qövmünün başına gələn tufan sona catmış və gəmisi bu ayda Cudi dağına oturmuş;

• Hz. İbrahim Aşura günü doğulmuş, ilahlıq iddiasında olan Nəmrudun atəşindən bu ayda xilas olmuş, Allah (c.c.) ona yolun doğrusunu bu gundə gostərmiş;

• Övlad ağrısı və həsrətiylə qovrulan Hz.Yaqubun gözləri bu gündə görməyə başlamış, bu ayda oğulu Hz. Yusifə qovuşmuş, Hz. Yusif qardaşlarının atdıqları quyudan bu ayda çıxardılaraq Misir Əzizi tərəfindən dövlət xəzinəsinin başına gətirilmiş;

• Səbir və dözum qəhrəmanı Hz. Əyyub bu ayda xəstəliyinə şəfa tapmış;

• Hz. Musa bu ayda doğulmuş, özünə bu ayda bir möcüzə lütf edilmiş, qövmüylə birlikdə Qırmızı Dənizi kecmiş və onu təqib edən fıron və ordusunun suda boğulması bu ayda baş vermiş;

• Hz. Davudun tövbəsi bu ayda qəbul edilmiş;

• Hz. Süleymana bu ayda mülk (hökmranlıq) verilmiş;

• Hz. Yusif balığın qarnından bu ayda xilas olmuş;

• Hz. İsa bu ayda doğulmuş və yəhudilərin şərrindən bu ayda səmaya yüksəldilərək xilas olmuş;

• Hz. Məhəmmədin (s.ə.s.) kecmiş və gələcək bütün günahlarının bağışlanılacağına dair özünə Allah tərəfindən təminat bu ayda verilmişdir.

Bu hadisələrin içərisində bir hadisə var ki, insanın ürəyini dağlayır. Hz. peyğəmbərin ifadəsi ilə desək Cənnət cavanlarının əfəndisi olan həzrəti Hüseynin də şəhadəti bu aydadır. Bu hadisə elə bir hadisədir ki, bu haqda oxuyanda və ya danışanda kədərlənməmək, ağlamamaq mümkün deyil. Müaviyənin vəfatından sonra xilafətə gələn Yezid Hz. Hüseyni özünə biyət etdirmək istəyir.



Hz. Hüseyn isə ona biyət etmir. Kufədən gələn 150-dən çox dəvət məktubu alan Hz. Hüseyn, Kufəyə getməyə qərar verir. Ancaq Yezidin oraya təyin etdiyi valinin qorxusuyla tərəf dəyişdirən xalq Hz. Hüseyni tək qoyur. İraqlıların bu xəyanəti Hz. Hüseyni çox yaraladı. Hz. Hüseyn öncədən elçi olaraq Kufəyə göndərdiyi Müslimin öldürüldüyünü öyrənincə tamamilə ümidini itirərək, geri dönməyə qərar verdi. Lakin bu dəfə də Müslimin qardaşları və uşaqları icazə vermədilər Hüseynin dönməsinə. "Müslimin intiqamını almadan dönmərik" deyirdilər. Hz. Hüseyn çarəsiz: "Diləyən geri dönüb, mənim aqibətimə ortaq olmaya bilər", – dedi. Bu sözü fürsət bilən bir çox adam dərhal geri döndü və Hz. Hüseyni qədəriylə başbaşa buraxdılar. Qohumlarından başqa kimsəsi qalmayan Hz. Hüseynin ətrafında kişilərdən yalnız 72 adam qalmışdı.

Hz. Hüseyn, dəstəsiylə birlikdə Kərbəlaya qədər gəldi. Onsuz da Kərbəla, bəla üstünə bəla demək idi. Belə quraq bir yerdə, Fərat çayı yaxınlığında yerləşmək istəyən Hz. Hüseynə Hur ibni Yezidin ordusu tərəfindən icazə verilmir. Hətta Hz. Hüseyn biryaşlı oğulu Əliəsgəri qucağına alaraq, körpənin susuzluqdan dodaqlarının quruduğunu söyləyib su kənarına getmək üçün icazə istəmiş, lakin Hüseynin bu istəyinə, körpənin boğazına ox atıb onu öldürərək cavab verilir.

Beləcə 5 000 nəfərlik ordu qarşısında Hz. Hüseyn yalnız 72 əsgərlə qalır. Vəziyyətin getdikcə çətinləşdiyini yaxşı anlayan Hz. Hüseyn, yaxınlığında olan Ömər ibni Sədə səslənərək: "Mən buralara qədər sizlərin və kufəlilərin dəvəti ilə gəldim. Madam ki, artıq məni istəmirsiniz, buraxın geri dönüm" – deyir. Lakin Übeydullah, komandirinə "Hüseyni qeydsiz-şərtsiz təslim alın" qəti əmrini göndərmişdi. Übeydullahın bu əmrini Ömər ibni Sədə gətirən Şimr ibni Zilcevşən adlı münafiq idi. Valinin Şimri göndərməsindəki məqsədi, Ömərin Hüseyn tərəfinə keçməsini önləmək idi. Əgər vəzifəsini yerinə yetirməyib Hüseyni həbs etməzsə, komandanlığı da Ömərdən alması əmr edilmişdi. Bütün bu olanlara baxmayaraq Hüseyn, təslim olmağı şiddətlə rədd etdi.

O gecə yanındakılara artıq ayrılıq vaxtının gəldiyini söyləyən Hüseyn, bu qaranlıq gecənin səhərində öldürüləcəyini anlamış və bunu ətrafındakılarla paylaşmışdı. Onlardan, özüylə birlikdə həyatlarını təhlükəyə atmamalarını, qaçıb xilas olmalarını istədi. Lakin onlarda vəfa duyğusu, can qorxusuna üstün gəldi. Hüseynin bu son gecəsi idi. Çadırdakı hər kəs bunu hiss edərək, Hüseynə ağlayırdılar. O isə tam bir təvəkkül və təmkinlə onları təsəlli verməyə çalışırdı. Gecəni, Uca Allaha dua edərək keçirdilər.

Hz. Hüseyn, üzərinə hücum edənlərə qarşı var gücüylə döyüşmüşdü. Kufəlilər bir tərəfdən Hz. Hüseyni öldürmək istəyirlər, digər tərəfdən ona ilk qılınc zərbəsi vuran şəxs olmaqdan, başlarına böyük bir bəla almaqdan qorxurdular. Lakin Şimr davamlı qışqırıb, əsgərlərinə bir an əvvəl Hüseyni öldürmələrini əmr edirdi. Zürə adlı bir zorba Hz. Hüseynə ilk qılınc zərbəsini endirdi. Hüseyn, düşdüyü yerdən qalxmağa çalışarkən, Sinan ibni Ənəs ən-Nehai adında başqa bir zorba, mizrağını Hz. Hüseynə batırdı. Peyğəmbərin nəvəsini, başı önünə düşmüş, əlləri və dizləri üstündə dayanarkən, Sinan üstünə atıldı və başını kəsdi. Başsız bədən yerə düşərkən, ətrafdakı kufəli leş qarğaları bu şərəfli bədənə hücum edərək üstündə nə varsa götürüb yağmalamağa başladılar. Hz. Hüseynin şanlı gövdəsi, başsız bir şəkildə, qanlar içində üzüstə qaldı, günəşin qovurduğu qıpqırmızı Kərbəla torpağında Hz Hüseyn 57 yaşında, susuz buraxılaraq şəhid edilmişdi.

Kərbəla faciəsi bütün zamanlarda müsəlmanların qanayan bir yarası olmağa davam etdi. O gün Kərbəla faciəsinə qatılan və Hz Hüseyn xanədanına hücum edənlər, amansız xəstəliklər və dərmansız dərdlərlə tələf olub getdilər. Bir çoxu da havalanaraq öldülər.

***Yezidə gəlincə; cəmi 3 il yarım xəlifəlik edən və 38 yaşında ölən Yezidin bu 3 ili də iç qarışıqlıq və üsyanlarla keçdi. Yezid 3 il yarım səltənət üçün Peyğəmbər nəvəsinin qanını tökdü.***

Hacı BƏKİROĞLU

# ƏHALİSİNİN BANK BORCLARINA GÖRƏ GÜRCÜSTAN DÜNYADA BİRİNCİ YERİ TUTUR

İqtisadi məsələlər üzrə ekspert Mixail Dondua 1000 nəfərdən 800-ünün banklara borclu olduğunu bildirib. Onun sözlərinə görə, bu göstərici üzrə Gürcüstan dünyada birinci yeri tutur.

Dondua deyib: "Bu göstərici üzrə Gürcüstan dünyada birinci yerdədir. Bu, tarixi maksimumdur, Beynəlxalq Valyuta Fondunun Gürcüstanla bağlı hesabatında qeydə alınmış hal heç bir ölkədə heç vaxt baş verməyib. Bizdə bank sektorundan kəskin şəkildə asılı olan vətəndaşlar var. Nəticədə bütün bunlar iqtisadiyyatı maliyyələşdirmək üçün larinin uzunmüddətli ehtiyatının meydana çıxmasının gərəkli olmasına inam yaradır".

Dondua qeyd edib ki, gəlirləri təsdiq olunmamış vətəndaşlara borc vermək olmaz.

Dondua əlavə edib: "Bu Beynəlxalq Valyuta Fondunun tövsiyələrindən biridir, Milli Bankın bunu nəzərə alması gərəkdir. Vətəndaş öz gəlirinin böyük hissəsini banklara ödəməməlidir. Yaxşı olardı ki, bu, milli valyuta ilə 30%, xarici valyuta ilə 20% olsun. Bankın vətəndaşı boğmaması üçün tövsiyələrin həyata keçirilməsi çox ləngiyir. Ümid edirəm ki, Milli Bank onu ayın sonunadək (sentyabrın sonu nəzərdə tutulur – red. qeydi) yerinə yetirəcək. Xarici valyuta ilə borc verilməsi məhdudlaşdırılıb, bu, çox yaxşıdır, lakin bu tövsiyələr də yerinə yetirilməlidir. Vətəndaşa onun gəliri təsdiq olunmadan borc verməк olmaz".

# AVROPA GÜRCÜ OĞRULARINA MÜHARİBƏ ELAN EDİB

Polis əməkdaşları italiyada və Almaniyada mənzil oğurluğu ilə məşğul olan gürcüstanlı 28 cinayətkarı saxlayıb.

İtalyan və alman polislərinin məlumatına görə, saxlanılanlar mütəşəkkil cinayətkar qruplaşmaların üzvləridirlər. Onların son iki ildə Almaniya və İtaliyanın müxtəlif şəhərlərində 85 mənzil qarət etdikləri bildirilir. Oğrular öz "qənimətlərini" Gürcüstana göndəriblər.



Bu günlərdə parlament dinləmələrində iştirak edən Gürcüstan XİN-nin başçısı Mixail Canelidze bildirib ki, hökumət Gürcüstan əsilli cinayətkarların aşkarlanması üçün Avropa ölkələrinin hüquq mühafizə orqanları ilə əməkdaşlıq üzrə təsirli tədbirlər görür.

Nazir deyib: "Xüsusilə son illərdə müxtəlif Avropa paytaxtlarında Gürcüstan səfirlikləri yanında polis attaşeləri işləməyə başladıqdan sonra bu istiqamətdə ciddi irəliləyişlərimiz var".

Cari ilin yayında İspaniya, Almaniya və Yunanıstanda onlarla gürcü cinayətkarlarının yaxalanması barədə xəbər yayılmışdı. Gürcüstan DİN-nin məlumatına görə, cinayətkarların yaxalanmasında Gürcüstan tərəfi də fəal iştirak edib.

# KRİPTOVALYUTA YENİ NƏSİL ÖDƏNİŞ SİSTEMİDİR

**Pul – elə universal məhsuldur ki, onsuz heç bir müasir cəmiyyət keçinə bilməz. Zaman keçdikcə pulun özü də inkişaf edən texnoloji nailiyyətlər sayəsində yeni və daha geniş imkanlara malik ödəniş vasitəsinə çevrilir. Bunlardan biri də kirptovalyutalardır. Bəs kriptovalyuta nədir, hansı növləri var, harda və necə istifadə etmək mümkündür?**

Kriptovalyuta – virtaul (rəqəmsal) valyutanın bir növü olmaqla bərarbər elektron ödəniş şəbəkəsidir. İnternet şəbəkəsinin qlobal xarakter daşıdığı bir dövrdə kriptovalyuta maliyyə sistemində innovativ bir yenilikdir və ödəniş vasitəsi kimi yaxın gələcəkdə ən ideal valyuta olacağı qaçılmazdır. Hətta kriptovalyutaya internetin qızılı da demək mümkündür.

Kriptovalyutanın əldə edilməsi prosesi – mayninq adlanır və bu zaman kriptoqrafiyadan istifadə olunduğundan valyuta sözünün əvvəlində "kripto" prefiksindən istifadə olunur. Hər bir kriptovalyuta vahidi ingilis dilində – Coin adlanır və coinlərin emissiyası yalnız qabaqcadan müəyyən olunmuş alqoritm əasasında məhdud sayda ola bilər. Coinlərin hər birində şifrələnmiş informasiya mövcuddur və istənilən növ saxtakarlıqdan mühafizə olunur. Coinlərin şəbəkədə olmasını, onların üçotunu və hesabatının aparılmasını Blokçeyin sistemi təmin edir.

Kriptovalyuta hər hansı dövlətin siyasətindən, qanunlarından, pul vahidindən aslı deyil və heç bir dövlət tərfindən tənzimlənmir. Onun qiyməti bazarda tələb-təklif əsasında müəyyən olunur və digər ölkələrin valyutası ilə mövcud bazar məzzənəsi ilə mübadilə edilə bilir. Bu valyutanı istifadə etməyi heç kim məcbur və ya qadağan edə bilməz.

O halda sizdə sual yarana bilər ki, bəs kriptovalyutanın adi istifadə etdiyimiz elektron pullardan fəqri nədədir? Adi pulların elektron hesabda olması üçün ilk növbədə həmin pulu fiziki olaraq bank vasitəsilə hesaba qoymaq lazımdır. Yəni, pulun hesabda elektron görünüşü – sadəcə olaraq onun fiziki formasının elektron formadakı əksi deməkdir.

Kriptovalyuta isə birbaşa internet şəbəkəsində yaradılır və heç bir ölkənin maliyyə-valyuta sistemi ilə əlaqəli deyil. Əsas xarakteristikası: mərkəzləşdirilmiş nəzarət mexanizminin olmaması, inflyasiyaya məruz qalmaması, saxta emissiya xüsusiyyətinin qeyri-mümkün olması. Təsəvvür edin fiziki və hüquqi şəxslər bir-biri ilə bank və ya hər hansı vasitəçi olmadan, həmçinin heç bir komissiya xərci ödəmədən valyuta mübadiləsi edir.

Bitcoin – ilk rəqəmsal valyutadır.

2008-ci ilin oktyabr ayında Satoşi Nakamuto ləqəbli bir şəxs internetdə şəbəkənin iş prinsipi və protokolun təsvirini əks etdirən "Bitcoin P2P e-cash paper" adlı fayl paylaşır və artıq 2009-cu ilin yanvar ayında ilk bitcoin yaradılır.

Bitcoinin ilk istifadəçiləri isə İT proqramçılar oldu və yarandığı ilk illərdə elə də populyar olmadı. 2013-cü ilin yanvar ayında bir bitcoinin dəyəri 13,4 ABŞ dolları olduğu halda, həmin ilin noyabr ayında bitcoinin dəyəri 1 000 ABŞ dollarına qalxdı. Bunun əsas səbəbləri bitcoinə olan tələbin artması, amerikan brauzer oyunlar şəbəkəsi Zynganın bitcoini dəstəkləməsi, həmçinin Kiprdəki universitetlərdən birinin tələbələrin illlik ödəniş haqqının bitcoinlərlə ödənilməsi üçün imkanı yaratması oldu.



Bitcoin sahiblərinin anonim olması kriminal aləmin və kölgə iqtisadiyyatının iştirakçılarının böyük marağına səbəb oldu. Tranzaksiyaların tam anonimliyi təmin olunan ödəniş sistemi silah satışı, insan alveri və çirkli pulların yuyulmasına zəmin yaradır. Bu səbəbdən 2013-cü ilin may ayında ABŞ-ın Milli Təhlükəsizlik Departamenti ödəniş sistemində bitcoinlərdən istifadə edilməsinə qadağa qoyaraq bitcoini çirkli pulların yuyulmasında əsas maliyyə aləti olduğunu iddia etdi. (Bu günlərdə Çin də kriptovalyutadan istifadəni qadağan edən qərar qəbul edib – red. qeydi)

Onecoin – bitcoindən sonra yaranan növbəti yeni nəsil ödəniş sistemidir. Lakin Onecoin yaradılarkən ilk kriptovalyuta olan bitcoinin çatışmamazlıqları aradan qaldırıldı və iqtisadi əsaslara tabe olan daha yeni kriptovalyuta meydana gəldi.

Bəs Onecoinin Bitcoindən üstün cəhətləri nədədir? Qısa olaraq əsas fəqrləri nəzərdən keçirək:

1. Bitcoinin yaradıcısı hesab edilən Satoşi Nakamoutanı hələ də canlı olaraq heç kim görməyib. Bəlkə də bu ləqəb arxasında başqa bir şəxs və ya bir qrup ixtiraçı alim gizlənir. Onecoin isə rəsmən 2015-ci ilin yanvar ayında "One Coin Limited" şirkəti tərəfindən yaradılmışdır. Şirkətin hazırda dörd ölkədə (Dubay, Bolqarıstan, Honkonq və Hibraltar) rəsmi ofisləri mövcuddur.

2. Bitcoinin mərkəzləşdirilmiş idarəetməsi yoxdur və nəzarəti yalnız bitcoin istifadəçiləri öz aralarında edir. Belə olduğu halda gələcəkdə hesablara hər hansı haker hücümu zamanı oğurlanmış bitcoinləri geri qaytarmaq mümkün deyil, hətta bunu edə biləcək mexanizm də yoxdur. Buna misal olaraq 2013-cü il 9 dekabr tarixində hakerlərin bitcoin istifadəçilərinin hesablarından 100 mln ABŞ dolları oğurlanmasını göstərmək olar. Həmçinin bitcoin istifadəçisi hesab üzrə parolunu itirdiyi halda parolun yenidən bərpa olunması mümkün deyil.

Onecoin isə mərkəzləşdirilmiş idarəetmə sisteminə malikdir və hər beş dəqiqədən bir sistemdə olan məlumatlar kopyalanaraq üç fərqli ölkədə yerləşən serverlərdə saxlanılır. Bu da öz növbəsində istənilən əməliyyatı dəqiqliklə izləməyə imkan verir. Yəni heç bir halda oncoinlər hesabdan oğurlana və ya silinə bilməz.

3. Bitcoin sahibləri anonim istifadəçilərdir və sistem üzrə bütün tranzaksiyalarda tam anonim aparılır. Anonimlik isə çirkli pulların yuyulması üçün böyük imkanlar yaradır. Bu səbbədən bir çox dövlət və iri maliyyə qurumları bitcoini ödəniş vasitəsi kimi tanımaq istəmir.

Onecoin sahibləri isə heç bir halda anonim ola bilməz və hər bir istifadəçi qeydiyyat zamanı "KYC" (know your client) verivikasiyasından keçməlidir. Yəni, hər bir elektron hesab sənədlə təsdiq edilir.

4. İstənilən şəxs şəbəkədə xüsusi mayninq avadanlığı ilə təchiz edilmiş kompyuter ilə bitcoin əldə edə bilər.

5. "One Coin Limited" şirkətinin güclü marketinq strategiyasının olması insanlar arasında onecoinə marağı daha da artırmışdı. Dünyada artıq 2 milyondan çox insan onecoin layihəsinə qoşulub və bu kriptavalyutalar arasında sayca ən çox istifadəçisi olan valyuta hesab edilir. Onecoin yeganə kriptovalyutadır ki, real bazarın əldə edilməsi üzrə inkişaf strategiyasına, peşəkar komandaya və planlaşdırılmış effektiv idarəetməyə malikdir. Hazırda onecoinə tələbat sürətlə artmaqdadır. Misal üçün, 2015-ci il iyul ayında bir onecoinin qiyməti 1,55 avro olduğu halda, artıq 2016-cı ilin iyulunda 6,25 avroya qalxmışdır.

Bitcoində isə heç bir marketinq strategiyasi yoxdur və bitcoin sahibləri əsasən İT mütəxəssislər və birja treyderlərdir.

**Hazırda dünyada 100-dən çox kriptovalyuta növü mövcuddur və bu faktın olması artıq yaxın gələcəkdə bu vayutalara olan tələbatın yüksək olacağının göstəricisidir. Tələbatın əsas göstəricisini isə mübadilə imkanı daha çox olan kriptovalyuta müəyyən edəcək.**

Elnur QULİYEV

## GÜRCÜSTAN İQTİSADİYYATININ YARIDAN ÇOXU TBİLİSİDƏ CƏMLƏŞİB

Gürcüstan iqtisadiyyatının əsas aparıcı qüvvəsi Tbilisidir.

1,1 milyonluq Tbilisi məhsul istehsalında liderdir, ölkə müəssisələrinin 71%-i və buraxılan məhsulun 66%-i onun payına düşür. Xüsusi bizneslə məşğul olanların 64%-i də Tbilisidədir. Bu göstəriciyə görə, regionlar arasında ikinci yeri Acara, sonrakı yerləri isə İmereti, Kvemo Kartli və Sameqrolo-Zemo Svaneti tutur.

Regionlar arasında uyğunsuzluq Tbilisi və regionların işçi qüvvələrinin tərkibindəki fərqlə bağlıdır. Regionlarda bir milyon əməkqabiliyyətli adam az məhsuldar olan kənd təsərrüfatı sahəsində çalışır. Məhz buna görə onların hazırladıqları məhsulların dəyəri çox deyil. Tbilisidə isə məşğul olanların böyük hissəsi ticarət, nəqliyyat, sənaye və səhiyyə kimi daha məhsuldar sahələrdə çalışırlar.

Tbilisi və Gürcüstanın digər şəhərləri arasında qeyri-təbii nisbət də nəzərə çarpacaq dərəcədədir. Tbilisinin əhalisi Corc Zif qanunauyğunluğunu pozur. Bu qanunauyğunluğa görə, əgər böyük şəhərin əhalisi bir milyondursa, onda ikinci böyük şəhərin əhalisi heç olmasa yarım milyon olmalıdır, üçüncüdə isə təxminən üç dəfə az əhali yaşamalıdır. Lakin Batumi və Kutaisinin əhalisi 200 mindən artıq deyil, bununla da şəhərlər arasında movcud olan nisbət pozulur.

Maraqlıdır ki, son illər ərzində Batumi ölkənin ikinci böyük şəhəri kimi irəli çıxıb. Bunun nəticəsində Acara bütün istiqamətlərdə – müəssisələrin dövriyyəsi, məşğulların sayı və məhsul buraxılışına görə ikinci yerə çıxıb.

## GÜRCÜSTANDA SALLAQXANALAR BAĞLANIR



Gürcüstanda yaranmış ət çatışmazlığı ucbatından sallaqxanalar bağlanır. Bu biznes nümayəndələrinin bildirdiklərinə görə, gəlir daim azalır, bəzənsə ümumiyyətlə olmur.

Yaranmış vəziyyətlə bağlı bir neçə səbəbin, o cümlədən də son aylarda meydana çıxan ət çatışmazlığının adı çəkilir.

"Matador" şirkətinin direktoru İosif Koxtaşvili bildirib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə sallaqxanaların dövriyyəsi 30-40% azalıb.

O, deyib: "Keçən il biz ayda 100 mal kəsirdiksə, indi bu, 30-dan çox deyil. Digər problemlər də var. Tez-tez heyvanları sallaqxanalardan kənarda kəsirlər, bu, fermerlərə və kəndlilərə ucuz başa gəlir. Bundan başqa, elektrik enerjisi tariflərinin artması da mane olur. Ümumilikdə, əgər hər şey indiki kimi davam etsə, qalan sallaqxanalar da bağlanacaq, çünki indiki şərtlərlə biznesi inkişaf etdirməyin mənası yoxdur".

"Gürcü ət məhsulları" şirkətinin direktoru Sandro Mequtnişvili bazarda ət ixracının yaratdığı kəskin ət çatışmazlığının müşahidə edildiyini bildirib. O, vurğulayıb: "Keçən illə müqayisədə mal-qara az qalıb. Biz ayda 1200-ə qədər mal kəsirdik və "Karfur" şəbəkəsi kimi iri ticarət obyektlərini təmin edirdik. İndi də işlər davam edir, lakin həcmi tamam başqadır və bu da bizə gəlir götürməklə bağlı problemlər yaradır".

# MİRVARİNİ QAÇIRANLAR

## Akaki Qelovani

*(əvvəli ötən saylarımızda)*

**Məlumdur ki, Bodenştedtin fərqli poetik istedadı barədə söhbət Sizifin iri daşları ilə qurşaq tutmaq olardı, nəsil ədalətli olmalıdır. Mirzə Şəfinin müdafiəçiləri Bodenştedti nahaqdan ümidsiz irticaçı bəyan edirlər. Mirzə Şəfininin kəskin satiralarını heç də tərcümə etməzdi, nə də alman tənqidçilər IV Fridrix Vilhelmin ziddinə ( Kurt Zundermayer) yönəldilmiş hesab etdikləri bir mübahisəli epiqramı yazdığını onun adına yazmazdılar. Onun burjua mənəviyyatını və mötədilliyini heç kim inkar etmir, lakin onun yazılarında və tərcümeyi-halında heç bir irticaçılıq görmürük. Onun kitablarına həddindən artıq humanist, insan və təbiət sevgisi hopmuşdur, oxucunu azadlığa çağırır, həyatının böyük hissəsini Lermontov, Turgenev, Nekrasov ... kimi şairlərin tərcümə olunmasına həsr etmişdir. Məşhur əsərində Lermontovu üsyançı şair kimi qələmə vermişdir, Gertseni şəxsən tanıyırdı, Nekrasovla, Tutçevlə, Turgrenevlə yazışırdı. On illər ərzində Avropanın mərkəzində mütərəqqi rus ədəbiyyatının populyarlaşdırırlmasına xidmət edirdi, bütün xalqlara hörmət bəsləyirdi. İrticaçılar başqa yol ilə gedirlər. Doğrudur, mömindir, lakin Davir Quramişvili də mömin idi. Onun pessimist sızıltısı məlumdur, lakin müharibəni və qırğını necə pisləyirdi, o da məlumdur. Petefi kimi barrikadalarda, Kerner kimi döyüş meydanında həlak olmayıb, lakin bunun Mirzə Şəfinin tərcümələri ilə heç bir əlaqəsi yoxdur. Onun qara sevdası əməyində itir.**

Əgər Bodenştedtin orjinal əsərləri mübahisəyə çevrilibsə, onun tərcümələri barədə fikir isə heç mövcud deyil. Məşhur tədqiqatçı İohan Şerri və demək olar ki, bütün digər tənqidçilər də Almaniyanın adları ilə qürur duyduğu tərcüməçilər arasında onun da adını çəkirlər. Onun lakonikliyini, zərifliyini, ritmini alman şairlərinin istədiyiniz ritmi ilə yanaşı qoya bilərik. Buna orjinal əsərlərinə səpələnmiş mübahisəsiz güclü təsvirləri, Qafqaz və Gürcüstan təbiətinin mənzərələri, Mirzə Şəfinin səmimi olaraq çəkilmiş siması, əfi ilanın – qızdırmanın gizləndiyi Kolxeti bataqlığının müdhiş peyzajı, bu bataqlığın qurudulması barədə fikirləri əlavə etsək, sizin gözünüz önündə öz səhvlərini xeyirxah işi ilə satın alan yazıçı, şair, bizim ölkənin təmənnasız dostu dayanacaq. Belə idi Bodenştedt və bizim xalqın yaddaşında beləcə də qalmasını istəyirik . Budur, şair Gürcüstana qayıdır, daha bir dost, artıq gürcü dilində danışan dost.

** *

Təbiidir ki, bu kitabda gürcülərin dostu, böyük Azərbaycan şairi və maarifçisi Mirzə Şəfiyə əhəmiyyətli dərəcədə yer ayırdıq. Belə ki, Mirzə Şəfi həyat və yaradıcılığının böyük, daha səmərəli hissəsini Tiflisdə keçirmiş və öz yaradıcılığını belə qardaş millətlərin adlı-sanlı oğulları kimi, o cümlədən Mirzə Fətəli Axundov kimi dərin şəkildə bizim gerçəkliklə bağlamışdır. Lirikasını yüz ildən artıqdır ki, bütün Avropanın tanıdığı, "Tiflislə əlvida"nın müəllifinin bizim dilimizə tərcümə olunmaması qeyri-adi haldır.




İndi Mirzə Şəfi üçüncü dəfə, Hafizin Şiraza etdiyi kimi, məqsədi yenə də şöhrətləndirmək olduğu sevimli Tiflisinə qayıdır.

Leninqradın (indiki Sankt-Peterburq – M.M.) Şərqşünaslıq institutunda aşkar edilən bir gözəl əlyazması və şair Mirzə Mehdinin (Naci) toplusuna daxil olan beş şeirdən başqa Mirzə Şəfinin demək olar ki, heç bir əsli, orjinalı aşkar edilməmişdir. Odur ki, bizim üçün də orjinal olaraq Bodenştedtsayağı alman cildi qalırdı və elə buradan da gürcü tərcüməsi yerinə yetirildi.

Mirzə Şəfinin müdrik şeirləri aforistik danışıq inciləridir. Biz də başlıca olaraq bu şeirləri və satiraları seçdik.

Mirzə Şəfinin fəaliyyəti nəğmələr ilə bitmir. O, "Müntəxəbat"əsərini tərtib etmişdir, əsər Təbrizdə nəşr olunmalı idi, lakin onun əməkdaşı Qriqoryev bunun bir hissəsini nəşr etməyə müvəffəq oldu, o da Mirzə Şəfinin ölümündən sonra.

Bu müntəxəbat da həqiqi "müdriklik məktəbi"dir, dərin düşüncənin və böyük canfəşanlığın bəhrəsidir. Onun tərtibçisinin bir neçə müdrik kəlamını yoxlamaq kifayətdir ki, bu da qismən Bodenştedt tərəfindən tərcümə olunmuş-üzü köçürülmüş nəğmələrin də açarlarını verir: "Ağıllı düşmən ağılsız dostdan artıqdır", "İlan vuran ala çatıdan qorxar", "Yatan oyağı heç vaxt anlaya bilməz", "At öləndə itlərin bayramıdır", "Dəmiri yalnız dəmir kəsər", "İki qılınc bir qına qoyulmaz", "Kasıb adamın hədiyyəsi ən qiymətli hədiyyədir", "Ən çətini insanın özü özünü tanımasıdır", "Canlı it ölü aslandan artıqdır", "Alimin bir günü nadanın bütün ömründən artıqdır", "Deyənə baxma, deyilənə bax", "Müstəbid ölüdür, halbuki, diridir", "Dəlilik hirsin başlanğıcıdır", "Bu dünya cahillər üçün şirindir, ağıllılar üçün acı", "Qorxunun şüuru üstələdiyi yerdə insan həlak olur", "Cahil özünün düşmənidir, başqasının dostu necə ola bilər", "Hirsini cilovlayan kəs ən güclüdür", "İgidlik savaşda bilinir, müdruiklik hirslilikdə, dostluq çətinlikdə"...

Şair Mirzə Şəfi müdriklik sözü ilə müsibətə qarşı belə mübarizə aparırdı. Onun müdrik poeziyası dahi Rustavelinin "Şeir söyləmək lap başdan müdrikliyin bir sahəsidir" proqram sözünün daha bir poetik illüstrasiyasıdır.

Böyük satirik əmindir ki, onun yolu aydındır və doğrudan da bütün işlərdə onun fikri aydındır. Əgər böyük Hafiz "Əyyaşın qüsurunu demə, mənim şirin-şəkkərim, gözəlim" buyururdusa, Mirzə Şəfi bildirir: "Şərabın qədrini şərabı su kimi içən bilməz".

Gəncəli müdrik həyatda taleyinə görə zülmə məruz qalmışdı. Müstəbidlərin hökmranlığı dövründə şair daim üsyançı olub. Zamana dözə bilmirdi, ağır şeylərin batdığı bataqlılqda olduğu kimi çətin nəfəs alırdı. Yüngüllər isə onun səthində süzürlər. Gələcəyin ümidi onun nikbin poeziyasında sönür, lakin həddən artıq ümumi və müdrik idi, bu ümid, dar pəncərədən içəri soxulan, yeyilməmiş qalan salxım dənələrinə düşən zəif və dumanlı günəş şüası kimi idi. Bu gün qanuni peydestalda dayanan xoşniyyət və boy-buxunlu gəncəli müdrik sanki qəribə halda dəyişən Tiflisi rahatca seyr edir və gözüyaşlı öz-özünə danışır: "Bütün bunlar yaxşıdır, şərab da yaxşıdır, saraylar da və şan-şöhrət də, lakin mənim savadlı şagirdimə inciləri oğurlayan adı verirsiniz? Sizinlə müdrikcəsinə danışmıram! Oğurlamayıb, özüm ona hədiyyə etmişəm! Yumşaq ürəkli olun, ey insanlar!"

Deməli, Bodenştedtə qarşı yumşaq ürəkli olaq, gəncəli müdrik Mirzə Şəfinin özü isə zəngindir. Müdrikliyi və səbri ilə fərqlənən şairə mərhəmət lazım gəlmir.

***Fridrix Bodenştedt "Şərqdə min bir gün", Sabcota Sakartvelo, Tbilisi, 1965.***

Gürcü dilindən
tərcümə edən: Mirzə MƏMMƏDOĞLU

# AZƏRBAYCANLI GƏNCİN GÜRCÜLƏR VƏ GÜRCÜSTAN HAQQINDA KİTABI

Müəllifi marneulili gənc Kamuran Kiryakovun olduğu, Gürcüstan və gürcülər haqqında kitab qısa zaman öncə işıq üzü gördü və böyük marağa səbəb oldu. Biz müəlliflə söhbət etdik, o kitabın – "Bir dişlək alma"nın yazılma prosesi və gələcək planları haqqında danışdı.

Təqdimatı bir müddət əvvəl baş tutan "Bir dişlək alma" adlı roman Sovet İttifaqının dağılması fonunda Gürcüstanda baş verən bir neçə hadisədən bəhs edir. Kamuran Kiryakov qeyd edib ki, bu mövzuda yazması təbiidir, çünki onun ailəsi də Gürcüstanla birlikdə o zamankı repressiyaları yaşayıb, ancaq heç vaxt buradan getmək haqqında düşünməyiblər. "Kitabda 9 aprel hadisələri və onunla bağlı problemlər təsvir edilib, bu hadisələr fonunda yalnız pul, uğur deyil, həmçinin gürcülər üçün maddi dəyərlərdən daha əhəmiyyətli olan yaxşılıq böyük rol oynayır. Ümid edirəm ki, baş qəhrəmanın əziyyətlə dolu həyatı ilə yanaşı onun səmimi sevgi hekayəsi oxucuların maraqlarını təmin edəcək" – o, qeyd etdi.

Əsərin başlığı da olduqca qəribədir və müəllif bunu kainatda mövcud olan biliyi insanın tamamilə mənimsəməsinin mümkünsüzlüyü ilə əlaqələndirir.

Bu roman müəllifin ilk əsəri deyil və o, öz yazısını geniş kütləyə təqdim edənə qədər uzun və zəhmətli yoldan keçib. "İlk əsərim roman idi, onu yazmağa bir il vaxt sərf etmişdim, ancaq oxuduqdan sonra yandırdım, çünki bəyənmədim. O zaman başa düşdüm ki, yazıçılıq böyük əmək, əziyyət və hazırlıq tələb edir. Buna görə də məşq etməyə başladım, ilk əsərimi səkkiz il əvvəl yazdım, qısa müddət əvvəl isə ilk ciddi romanımı dərc etdirərək, arzumu gerçəkləşdirdim".



Kamuran Kiryakov hal-hazırda 24 yaşındadır və İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində, mədəniyyət fəlsəfəsi üzrə magistr dərəcəsində təhsil alır. Maraqlıdır ki, onda bu sahəyə maraq dostunun "Şərq fəlsəfəsinə giriş" adlı kitabını oxuduqdan sonra yaranmışdır. Kitabı o qədər bəyənmişdir ki, öz nüsxəsini yaratmağa, kitab yazmağa qərar vermiş və gələcək planlarını da məhz fəlsəfə ilə əlaqələndirmişdir, o, bunun yazmağa da kömək etdiyini deyir.

Gələcəkdə Kamuran kitabının gürcü dilinə tərcümə edilməsini planlaşdırır, çünki artıq qeyd etdiyimiz kimi, kitab hələlik yalnız azərbaycandilli oxucular üçün əlçatandır. Müəllif qeyd edir ki, ana dilində yazmaq ona daha çox azadlıq verir, lakin demək istədiklərinin daha böyük ictimaiyyətə çatması olduqca mühümdür. Kitabın tərcümə prosesi ən yaxın zamanda başlayacaq.

http://www.doctrina.ge/

Hazırladı: Tamar Devdariani

Gürcücədən tərcümə Afayət Afiqə məxsusdur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 sentyabr 2017-cı il
№018 (56)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜ PİANOÇU BAKIDA XÜSUSİ KONSERT PROQRAMI İLƏ ÇIXIŞ EDİB




Üzeyir Hacıbəyli adına IX Beynəlxalq Musiqi Festivalı çərçivəsində, Beynəlxalq Muğam Mərkəzində məşhur gürcü pianoçusu, beynəlxalq müsabiqələr laureatı, YUNESKO-nun sülh naminə artisti, Gürcüstanın “The medal of Georgian Government” Dövlət mükafatının sahibi Eliso Bolkvadzenin konserti olub.

Bolkvadze peşəkar fəaliyyətinə Fransada və Avstriyada başlayıb. O vaxtdan da dünya şöhrətli orkestrlərin müşayiətilə Avropanın və ABŞ-ın nüfuzlu konsert salonlarında çıxış edir. O, bakılılar üçün əcnəbi bəstəkarların əsərlərindən ibarət xüsusi konsert proqramı hazırlayıb.

Pianoçu Bakıda ilk dəfə yeddi yaşında olduğunu, buna görə də şəhər haqqında heç nə xatırlamadığını bildirib.

Bolkvadze deyib: “Mən bu festival çərçivəsində bakılılar qarşısında çıxış etmək şərəfinə nail olduğuma görə xoşbəxtəm. Sizin üçün Qara Qarayevin əsərlərini ifa etməyi çox istərdim, lakin onları məşq etməyə boş vaxtım olmadı. Eybi yoxdur, növbəti dəfə olar”.

Üzeyir Hacıbəyli adına IX Beynəlxalq Musiqi Festivalı sentyabrın 18-dən 26-dək ölkənin müxtəlif konsert salonlarında keçirilib. Festivalda Almaniya, Rusiya, Türkiyə kimi müxtəlif ölkələrdən gəlmiş musiqiçilər iştirak edib.

## NOBEL MÜKAFATININ HƏCMİ ARTIRILIR

Nobel fondu laureatlara verilən mükafatın həcmini 2001-ci ildən bəri ilk dəfədir artırır. Mükafat 12,5% artırılaraq, 8 milyon İsveç kronundan 9 milyon krona (təqribən 1,12 milyon dollara) qaldırılır.

Fondun sədri Karl-Henrik Heldin deyib: “Gələn həftədən 2017-ci ilin Nobel mükafatı laureatlarının adlarının açıqlanmasına başlanılacaq, biz bu il mükafatın məbləğinin bir milyon İsveç kronu artırılmasını xəbər verməkdən məmnunluq duyuruq”.

Qeyd edək ki, fond uzunmüddətli perspektivdə təşkilatın kapitalının azalmasından qaçmaq üçün mükafatın məbləğini 10 milyon İsveç kronundan 8 milyon kronadək azaltmışdı.




Oktyabrda laureatlar artıq qəti olaraq təsdiqlənərək, elan olunur. Nobel mükafatı hər il dekabrın 10-da Stokholmda və Osloda təqdim olunur.

## 2017-Cİ İLİN ƏN ÇOX QAZANAN AKTYORLARI



Forbes nəşrinin versiyasına görə, 2017-ci ildə ən çox qazanan aktyor 46 yaşlı amerikalı Mark Uolberqdir.

Nəşrin məlumatına görə, 2016-cı ilin iyunundan 2017-ci ilin iyununadək aktyorun “Salam, ata, Yeni il! 2-ci hissə” və “Transformerlər: sonuncu cəngavər” filimlərindən qazancı 68 milyon dollar olub.

Reytinqin ikincisi olan amerikalı kinoaktyor Dueyn Conson bəhs olunan dövrdə 65 milyon dollar qazana bilib. Üçüncü pillənin sahibi də amerikalıdır. Belə ki, aktyor Vin Dizel 54,5 milyonluq gəliri ilə üçüncü yeri tutub.

Onluqda ən çox qazananlar arasında Adam Sendler (50,5 milyon dollar), ötən ilki reytinqin ikincisi olmuş Ceki Çan (49 milyon), Robert Dauni-kiçik (48 milyon dollar), Tom Kruz (43 milyon dollar) kimi adlar da var. Onluqda sonuncu üç yerə hind kinematoqrafının nümayəndələri – Şahrux Xan (38 milyon dollar), Salman Xan (37 milyon dollar) və Akşay Kumar (35,5 milyon dollar) sahibləniblər.

Nəşrin məlumatına görə, bəhs olunan dövr ərzində iyrimi aktorun birlikdə qazancı 720 milyon dollar təşkil edib.

## ARXEOLOQLAR DAVİD QARECİ KOMPLEKSİNDƏ NADİR TAPINTI AŞKARLAYIBLAR



Gürcü arxeoloqları orta əsrlərə aid David Qareci mağara kompleksinin hücrələrində yaşayanların daha bir sirrini açıblar.

Gürcüstan Milli muzeyinin mütəxəssiləri monastırda mis qablar, keramika və şamdanlar aşkarlayıblar.

Tapıntıların orta əsrlərin sonuna aid olduğu güman edilir. Qablar əla vəziyyətdədir.

Ekspedisiyanın rəhbərlərindən biri, İlya Dövlət Universitetinin professoru Nodar Baxtadze tapıntılar barədə məlumat verib. Onun sözlərinə görə, monastır üzvlərinin bu mətbəx əşyalarını İran istilaçılarının hücumu zamanı XVII əsrin əvvəlində gizlətdikləri güman olunur.

David Qareci kompleksi VI əsrə aiddir və Gürcüstanın əsas müqəddəs ziyarətgahlarından və görməli yerlərindən biri sayılır. Monastır kompleksi YUNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilib. Kompleks Tbilisidən 60 kilometr cənub-şərqdə, kompleksi ikiyə bölən Azərbaycan-Gürcüstan sərhədində yerləşir. David Qareci qayalarda oyulmuş 20-yə yaxın monastırdan ibarətdir və Gürcüstanın Qardabani, Saqareco və Siqnaxi rayonlarının ərazisində yerləşir.

Monastırın əsası VI əsrin ortalarında Suriyadan rahibliyi Gürcüstana gətirmiş David Qarecili tərəfindən qoyulmuşdur.

## DUBAYDA AVTONOM UÇAN TAKSİNİN SINAĞI KEÇİRİLİB



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində pilotsuz uçan taksinin sınaq uçuşu keçirilib.

Almaniya konstruktorları tərəfindən ərsəyə gətirilən nəqliyyat vasitəsi sərnişinlərin avtonom rejimdə çatdırılmasını təmin edəcək. Havada 30 dəqiqə uça bilən aparatın maksimal sürəti saatda 100 km təşkil edir.

Məlumata görə, sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi üçün pilotsuz uçan aparat paraşütlər və doqquz müstəqil akkumulyatorla təchiz ediləcək.

Sərnişinin avtonom taksini mobil telefon proqramı vasitəsilə sifariş edə biləcəyi nəzərdə tutulur.

## MİSİRİN PAYTAXTI YENİ ŞƏHƏRƏ KÖÇÜRÜLƏCƏK

Misirin hazırda tikintisi davam edən yeni inzibati paytaxtı gələn ilin sonlarında dövlət idarələrini qəbul etməyə hazır olacaq. Bunu sentyabrın 24-də Misirin baş naziri Şərif İsmayıl bəyan edib.

Qeyd edək ki, əhalisi 20 milyon nəfərə çatan paytaxt Qahirədən 45 km şərqdə yerləşən Yeni Qahirənin tikintisi barədə iddialı plan 2015-ci ilin martında elan edilib. Süveyş kanalına qədər uzanan və dünyanın məşhur biznes-mərkəzləri ilə rəqabət aparacağı iddia olunan şəhərin tikintisinin 45 milyard dollara başa gələcəyi və 5 milyon insanın məskunlaşacağı proqnozlaşdırılır.

## BAŞSAĞLIĞI

Kosalı ictimai məktəbinin pedoqoji kollektivinin və texniki heyətinin üzvləri iş yoldaşları

**Hacıyeva Zeynəb Qiyas qızının**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.